**Layihənin istiqaməti: Regionların sosial-iqtisadi inkişafının təşviq edilməsi**

# REGİON

**AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ YANINDA KÜTLƏVİ İNFORMASİYA VASİTƏLƏRİNİN İNKİŞAFINA DÖVLƏT DƏSTƏYİ FONDU**

**№ 10 (1138) 19 yanvar - 20 yanvar 2016-cı il**

# MASALLI - 2015

**Azərbaycanın regionları içərisində özünəməxsus relyefi, yəni coğrafi şəraiti, həm də əhali sporu ilə seçilən Masallı təkcə sovet dönəmində deyil, bugünün özündə də sosial-iqtisadi həyatı ilə seçilir. Bu bölgənin əhali sıxlığı həm də regionun ərzaq və digər sosial tələblər baxımından daha çox diqqət mərkəzində olmasını tələb edir. Ona görə də zaman-zaman bu rayona ölkə rəhbərliyinin xüsusi diqqəti olub və bu gün də Azərbaycan Prezidenti cənab İlham Əliyevin Masallıya diqqət və qayğısı xüsusi diqqət çəkir. Yerli sakinlər Ulu öndərimiz, ümummilli liderimiz Heydər Əliyev cənablarının, həm də bugünkü Ali Baş Komandanımız, prezidentimiz möhtərəm İlham Əliyev cənablarının Masallıya səfərlərini xüsusi sevgi və ehtiramla xatırlayıb qeyd edirlər. Adamlar, xüsusilə sıravi vətəndaşları bu səfərilərin hər birini Masallıya, Masallı sakinlərinə ölkə rəhbərliyinin qayğısı kimi dəyərləndirirlər.**

> **“...Rayonun sosial-iqtisadi inkişafı ilə bağlı tədbirlər görülür, vaxtaşırı Prezidentin ehtiyat fondundan vəsait ayrılır, dövlət investisiya proqramında məsələlər öz həllini tapır. Növbəti illər üçün bu günə qədər həll edilməyən məsələlər də öz həllini tapacaqdır”.**
>
> ***Azərbaycan Respublikasının Prezidenti***
> ***İlham Əliyev***

Regionların İnkişafına Dair Dövlət Proqramına uyğun olaraq görülən tədbirlər sırasında digər bölgələrimiz kimi Masallının da özünəməxsus yeri var. Biz də digər bölgələrimiz kimi, Masallıda Regionların İnkişafına Dair Dövlət Proqramının həyata tətbiqini izləmək üçün bölgəyə səfər etdik. Masallıda olarkən qarşımıza sıxan vətəndaşların hər biri ilə söhbətimizdə rayonda həyata keçirilən quruculuq-abadlıq işlərindən müfəssəl xəbər tutmaq mümkün oldu. Ancaq eşitdiklərimizi bilavasitə yaxından görmək bizim üçün daha maraqlı olduğuna görə, biz Masallı şəhərini gəzib-olaşdıq. Öncədən onu da xatfırladaq ki, şəhərin küçə və meydanlarında, parklarında diqqətçəkən işləri, tikilən sosial obyektlərin müasir görkəmində isə abadlığı hiss etməmək mümkün deyildi. Bax, bu mənada Masallı şəhərində olarkən öyrəndik ki, rayonun gənclərini öz ətrafında birləşdirə bilən YAP-ın rayon təşkilatı 2015-ci ildə xeyli iş görə bilmişdi. Həmin görülən işlrin içərisində təbii ki, bir siyasi təşkilat olaraq bu qurumun üzvlərinin say artımı daha diqqətçəkəndi. Yəni təkcə 2015-ci ildə YAP-ın Masallı rayon təşkilatının sırasına 4 saylı şəhər bağçasının, Masallı Olimpiya İdman Kompleksinin, Regional Dövlət Kollecinin, Mənzil Kommunal Təsərrüfatı İstehsalat Birliyinin ilk partiya təşkilatlarının yaradılması uğurlu bir hadisədi. Həmin qeyd edilən qurumlarda YAP-ın ilk təşkilatlarının yaradılması təbii ki, bir siyasi fəallıqla yanaşı, həm də ölkə iqtidarında olan böyük siyasi qüvvəyə inamın təzahürüdü.




Məhz bir siyasi təşkilat olaraq YAP-ın Masallı rayon təşkilatı ötən il ön sıralarına 346 nəfər gənc qəbul etmişdi ki, onların da 16 nəfərini xanımlar təşkil edir. Bu faktı ona görə diqqətə təqdim edirik ki, bu gün rayonda fəaliyyət göstərən qurumlarda, o cümlədən təhsil sahəsində 827 nəfər, səhiyyədə 169 nəfər, digər sahələrdə 1179 nəfər gənc, həmçinin incəsənət, idarəetmə və başqa qurumlarda da yetərincə insan siyasi təşkilat olan YAP-da öz fikir və iradələrini ifadə etmək, ölkə quruculuğunda yaxından iştirak etmək imkanı qazanıbdı. Elə rayonun bu təşkilatının fəallığının nəticəsidir ki, bu gün Masallıda keçirilən istənilən kütləvi, eləcə də müxtəlif bayram tədbirləri, anım günləri, şənliklər daha mütəşəkkil bir formada, planlı şəkildə özünü göstərir və nəticə də hər kəs üçün ürəkaçan olur. Üstəlik, bu təşkilatın rayonda həyata keçirdiyi maarifləndirmə işləri, xüsusilə ”erkən nigahın fəsadları”, ”gənc qızların təhsil problemləri”, ”ailə dəyərləri”, ”qadın böyük qüvvədi”, ”savadlı ana sağlam cəmiyyətin təməlidi” və digər mövzularda böyük təbliğat kampaniyasının gerçəkləşdirilməsi rayonun təkcə sosial həyatına deyil, həm də onun mədəni səviyyəsinin yüksəldilməsinə, intellekt imkanlarının genişləndirilməsinə şərait yaradır.



Bəli, bu gün Masallıda insanların maariflədirilməsi istiqamətində görülən işlərin nəticələri barəsində ölkə ictimaiyyətində müəyyən informasiyalar var. Yeri gəlmişkən onu da xatırladaq ki, erkən nigahla bağlı ölkədə reallaşdırılan proqramın şərhində, təqdimatında media da öz sözünü deyir. Bax, bu mənada cənub bölgəmizə, xüsusilə Masallıda bu gün təhsildən yayınma, daha çox yetkinlik yaşına çatmamış qızların ailə qurması hallarının probleme çevrilməsinə ciddi nəzarət, yəni bu problemin aradan qaldırılmasına qətiyyətli dəstək çox vacibdi. Həmin məsələdə də YAP-ın Masallı rayon təşkilatı da bir siyasi qüvvə kimi çox yaxından təsir göstərir. Deməli, bu da təkcə ailə problemlərinə deyil, həm də bütövlükdə sosial problemlərin çözümünə müəyyən şərait yaratmış olur.

Masallı şəhərini gəzərkən diqqətimizi çəkən sosial obyektlərlə yanaşı, Ulu öndərin adını daşıyan guşələrin, o cümlədən Heydər Əliyev mərkəzinin, Ümummilli liderimizin əzəmətli heykəlinin ucaldığı parkın təkcə gözəlliyi yox, həm də bu gözəlliyi yaradan insanların qabiliyyəti sözün həqiqi mənasında ürəyimizcə oldu. Gördük ki, rayonda tikinti-abadlığa, səliqə-səhmana necə həvəslə, həm də necə böyük diqqətlə yanaşılır. Xüsusi olaraq tikinti-abadlıq işlərində milli ornamentlərin tətbiqi, tikilən binaların layihələrindəki müasirlik göz oxşayır. Hər kəsin diqqətini çəkir. Bu isə rayon icra hakimiyyəti başçısının və onun komandasının rayonda gerçəkləşdirilən abadlığa, quruculuğa planlı şəkildə, mütəxəssis və sahib diqqəti ilə yanaşmasının nəticəsidi.

**(Ardı var)**

***Ceyhun RÜSTƏMOV***

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ YANINDA KÜTLƏVİ İNFORMASİYA VASİTƏLƏRİNİN İNKİŞAFINA DÖVLƏT DƏSTƏYİ FONDUNUN MALİYYƏ YARDIMI İLƏ